<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>EDU632 Təhsil fəlsəfəsi, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Magistr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025-2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Ruslan Xəlilov</td></tr>
<tr><td>E-mail:</td><td>ruslan.khalilov@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td>-</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Neftçilər Kampusu</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Razılaşdırılaraq təyin etmə ilə</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Ədəbiyyat</td><td colspan="2"><u>Əsas vəsaitlər:</u><br>1) Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>2) Mühazirə qeydləri.<br>3)Kemal Aytaç. Avrupa eğitim tarihi. Marmara Üniversitesi,1999.<br>4) Ornstein AC, Levine DU, Gutek G, Vocke DE. Foundations of education. Wadswoth Cengage learning: 2011.<br>5) Rüstəmov Fərrux. Pedaqoqika tarixi. Bakı: Nurlan, 2006.<br>6) Abbasov Akif, Məmmədova Lalə, İradə Əmirəliyeva. Pedaqoqika nəzəriyyəsi və tarixi. Bakı,2022<br><br><u>Əlavə vəsaitlər:</u><br>1) Curren, Randall, ed. A Companion to the philosophy of education. Oxford: Blackwell publishing, 2003.<br>2) Smeyers, Paul, ed. International handbook of philosophy of education. Cham: Springer, 2018.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Semestr müddətində tələbələrə təhsilin predmeti, tarixi və təhsil anlayışının fəlsəfi mahiyyəti tədris edilir. Həmçinin, tələbələr müxtəlif tarixi dövrlərdə mövcud olmuş təhsil sistemləri, nəzəriyyələri və bir sıra məşhur filosofların, elm adamlarının təhsil haqqında baxışlarıyla tanış olurlar.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Fənnin tədrisindəki məqsədlər aşağıdakılardır:<br>1) Tələbələrə təhsil anlayışı və onun fəlsəfi mahiyyəti, təhsil fəlsəfəsi ilə bağlı ümumi biliklər vermək, təhsilin fəlsəfəsi haqqında müxtəlif nəzəriyyələr ilə tanış etmək;<br>2) Təhsilin mahiyyətinə bir sistem kimi və fəlsəfi baxımından düzgün yanaşmaq vərdişlərini tələbələrdə formalaşdırmaq;</td></tr>
</table>

<table>
<tr><td>Tədrisin nəticələri</td><td colspan="3">Bu kursu uğurla bitirən tələbələr:<br><ul><li>Təhsilin fəlsəfi mahiyyəti barədə ümumi biliklərini daha da genişləndirəcək;</li><li>Təhsil fəlsəfəsinin əsas nəzəriyyə və konsepsiyalarını dərindən mənimsəyərək, müxtəlif fəlsəfi yanaşmaları müqayisəli təhlil edə biləcək;</li><li>Tarixi və müasir təhsil ideyalarını elmi arqumentlərlə qiymətləndirərək, onların pedaqoji sistemlərdə və cəmiyyətin inkişafında rolunu izah edə biləcəklər;</li><li>Təhsilin fəlsəfi mahiyyəti, həmçinin müxtəlif tarixi dövrlər üzrə təhsil ideyaları, sistemləri barədə geniş biliklərə sahib olaraq təhsil anlayışına daha dərindən nüfuz etmək, onun fəlsəfi mahiyyətini anlamaq, sərbəst düşünmək və həmçinin yeni ideyaların, konsepsiyaların hazırlanmasında tələbələrin də iştirakı üçün stimullaşdırıcı mühitin yaradacaq;</li><li>Mürəkkəb pedaqoji-fəlsəfi problemlərə yaradıcı yanaşaraq, yeni nəzəri çərçivələr və alternativ həll yolları təklif edə biləcəklər.</li></ul></td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktik tapşırıqlar və onların təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td>Diskusiyalar</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td>Semestr müddətində</td><td>10</td></tr>
<tr><td>Qrup müzakirə</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Quizlər</td><td>Semestr müddətində</td><td>15</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
</table>

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq və davamiyyət**<br>Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Aktivliyin qiymətləndirilməsi üçün tələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi, prezentasiya təqdimatı, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə təqdim etməsi tələb olunur.<br><br>**Qrup müzakirə**<br>Diskussiyalar zamanı magistrantın arqument gətirmə, tədqiqat mənbələrinə istinad etmə, analitik düşüncə nümayiş etdirmə kimi bacarıqları diqqətlə izlənilir və qiymətləndirilir.<br><br>**Quiz**<br>Quizlər semesterdə iki dəfə, tələbələrə yazılı olaraq üç açıq sual verməklə keçiriləcək. Sualların məzmunu tələbələrə əvvəlcədən bildiriləcək.<br><br>**Plagiat, akademik dürüstlük**<br>Plagiat digər müəlliflərin yazılarına istinad etmədən onlardan olduğu kimi istifadə edilməsidir. Plagiat edən tələbələr sıfır (0) alacaq və cərimə olunacaqlar. Tələbələr esse mətnində başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinadlar göstərməlidirlər. Akademik dürüstlüyün pozulması tələbənin işinin etibarsız sayılması və müvafiq intizam tədbirlərinin görülməsi ilə nəticələnəcəkdir.<br><br>**Dərsə davamiyyət və intizam qaydaları**<br>Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Onlar xəstə və ya rəsmi icazə aldığı (dekanlıq tərəfindən təsdiq olunmuş formada) hallardan başqa bütün dərslərdə iştirak etməlidirlər. Hər üzrsüz səbəbdən buraxılan dərs saatı davamiyyətə ayrılan ballardan çıxarılacaq (hər 2 saat – 0,5 bal).<br>Üzürsüz buraxılan dərs saatlarının sayı 25%-dan cox olduqda tələbə yalnız fakültə dekanının razılığı ilə imtahana buraxıla bilər.<br>Dərsə gecikmək və dərsin gedişatına mane olmaq (söhbət etmək və qeyri-etik davranışlara yol vermək) qadağandır. Müəllimin dərsin gedişatına mane olan tələbələri dərsdən kənarlaşdırmaq və bununla bağlı müvafiq qeyd aparmaq səlahiyyəti vardır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılmış) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 15-19.09.2025 | Giriş: Təhsil fəlsəfəsi anlayışı nədir? Təhsilə tarixi və fəlsəfi yanaşma.<br>Təhsilin ilkin formaları və onların fəlsəfi mahiyyəti | 1) Mehmet Güntekin *Təhsil elminə giriş* səh. 78-90; 15-22;<br>2) Sadovnik AR et. al *Exploring education* pp. 14-16.<br>Rüstəmov F. *Pedaqogika tarixi* səh.11-19. |

| | | | |
|---|---|---|---|
| 2. | 22-26.09.2025 | İlkin sivilizasiyalarda elm və fəlsəfənin yaranması və onların xarakterik xüsusiyyətləri. İlkin cəmiyyətlərdə biliyin öyrənmə üsulları | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 21-52;<br>2) Mühazirə qeydləri |
| 3. | 29-03.10.2025 | Qədim yunan-roma dövründə elm və fəlsəfə. Antik dövrün əsas nümayəndələri və onların elmi-fəlsəfi ideyaları | 1) Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 61-100<br>2) Mühazirə qeydləri |
| 4. | 06-10.10.2025 | Orta əsrlər dövründə təhsilin əsas fəlsəfi xüsusiyyətləri | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 117-130.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 78-84. |
| 5. | 13-17.10.2025 | Xristianlıq və İslam dinində elm və təhsil: oxşar və fərqli cəhətlərin təhlili | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 105-114;133-180. |
| 6. | 20-24.10.2025 | İntibah dövründə Avropada elm və təhsilin əsas fəlsəfi mahiyyəti | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 279-295.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 84-90. |
| 7. | 27-31.10.2025 | Yeni dövrdə Avropada təhsil: əsas nümayəndələr və onların bilik(idrak), onun növləri və əldə edilməsi haqqında fəlsəfi yanaşmaları | 1) Ornstein AC et.al *Foundations of education* pp. 92-96.<br>Rüstəmov F. *Pedaqogika tarixi* səh 327-348<br>3) Mühazirə qeydləri |
| **Aralıq imtahanı** | | | |
| 8. | 03-07.11.2025 | Con Lokkun elmi-fəlsəfi ideyaları. “Tabula rasa(ağ lövhə)” nəzəriyyəsi və onun mahiyyəti | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh.352-358.<br>2) Mühazirə qeydləri |
| 9. | 10-14.11.2025 | Jan Jak Russonun təhsil tarixində rolu. “Emil və ya tərbiyə” əsərinin elmi-pedaqoji əhəmiyyətinin təhlili | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 358-372<br>2) Mühazirə qeydləri |
| 10. | 17-21.11.2025 | İmmanuel Kantın pedaqoqika haqqında elmi-fəlsəfi ideyaları | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 402-410.<br>2) Mühazirə qeydləri |

| | | | |
|---|---|---|---|
| 11. | 24-28.11.2025 | C. S. Mill və onun utilitarianizmi. Utilitar təhsil və onun əsas fəlsəfi mahiyyəti | Mühazirə qeydləri |
| 12. | 01-05.12.2025 | Con Dyui və onun təhsil fəlsəfəsi | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 564-575.<br>2) Mühazirə qeydləri |
| 13. | 08-12.12.2025 | Müasir dövrdə qlobal dünyada təhsil fəlsəfəsi: əsas baxışlar, nəzəriyyələr | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh.563-582.<br>2)Mühazirə qeydləri |
| 14. | 15-25.12.2025 | Ümumi təkrar və diskussiya | |
| **Final imtahanı** | | | |